

# Zəkanın və qətiyyətin təntənəsi

*Ali Baş Komandana məktub*

Cənab Ali Baş Komandan. Mənə elə gəlir ki, hərbi vəziyyətlərdə, fövqəladə zamanlarda, ölüm-dirim savaşlarında ən ali rütbə, ən uca xitab, ən yüksək ünvan budur: Ali Baş Komandan!

Etiraf edirəm: Bəlkə, bu günəcən - yeddi on illiyə çatası ömrümün bu gününəcən hələ axıracan, indiki qədər dərk etməmişdim: "Sərkərdə qoçaq olsa, heç verməz ordu bada..." Minilliklərin xalq düşüncəsindən süzülüb gələn bu sözlərin həqiqəti məhz mənim ömrümün zamanında gözlərim önündə əsl mahiyyətini göstərdi.

Cənab Ali Baş Komandan, mən sanki ölkəmi böhranlardan, siyasi çarpışmalardan keçirib indiki zamana gətirən prezidentimi təzədən tanıdım. Onun bütün varlığı ilə torpağa, yurda, xalqa, milli mənafelərə bu dərəcədə bağlı olduğunu nə qədər bilsəm də, indi bildiklərimin əsl həqiqətə əzəmi dərəcədə çevrilməsini görmək məni sevindirir.

Bir neçə amili qeyd etmək istəyirəm: Cənab Ali Baş Komandan, keçmişdən - başı pozuqluqdan, mənəm-mənəmlikdən miras qalmış əsarətə, yurd işğalına son qoya bilməkdən üstün nə ola bilər?

Ali Baş Komandanın bir missiyası var; ölkəni orduya çevirmək, xalqı silahlı əsgərə çevirmək, əsgəri döyüşə aparmaq, döyüşü udmaq, qələbə ilə başa vurmaq! Amma bu gün Azərbaycan Prezidenti olaraq cənab Ali Baş Komandan, həm də dünyanın siyasi fikir cəbhəsində heç də döyüşdən aşağı, qanlı savaş aparmır. Siyasi fikir döyüşlərinin bu gün dünya siyasi fikir arenasında ən sarsılmaz obrazlarından biri bu gün İlham Əliyevdir. Bunu dünyanın ekran izləyiciləri, milyardlarla insan görür və etiraf edir.

Mən heyranam Ali Baş Komandanın tarix bilgisinə, yüksək intellektual fikir imkanları baxımından zənginliyinə. Mən heyranam Ali Baş Komandanın həm siyasi rəhbər, həm də bir hərbçi obrazı olaraq qətiyyətinə, onun siyasi iradə sarsılmazlığına.

*(Davamı 2-ci səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

Onun ayrı-ayrı çıxışlarındakı böyük ata məktəbindən gələn qırılmaz məntiq, zəngin düşüncə imkanları nəinki dostlarını heyran edir, mən inanıram ki, həm də düşmənlərini heyrətə salır.

Cənab Ali Baş Komandan, mən düşüncələrimi yazıya gətirərkən həm Sizə müraciət edirəm, həm də Sizin haqqınızda üçüncü şəxs kimi danışıram. Və hətta hiss edirəm ki, duyğularımı, düşüncələrimi qədərincə, varlığımdakı qədər ifadə edə bilmirəm.

Cənab Ali Baş Komandan, Siz xalqımızı xilas etdiniz başı aşağı olmaqdan, xəcalət yükündən. Hələ bura qədərki uğurlarımız da bəs eləyir ki, xalqımızın nəyə qadir olduğunu dünya görsün. Bu, Sizin hünərinizdir.

Erməni faşizmi tarixən erməni xalqının boyuna biçilmiş, "erməni qan gördü" kompleksini Qarabağ savaşı boyu anti-insani təbiəti ilə düşüncələrdən silmək istəyirdi. Ancaq Siz, məhz Azərbaycanın Ali Baş Komandanı özünün döyüş əzmi ilə göstərdi ki, o yarlıq erməni xalqının boynunda yenə qalır. Və bununla erməni faşizmi öz xalqını mənəvi girdaba saldı.

# Zəkanın və qətiyyətin təntənəsi

Siz dəfələrlə göstərdiniz və dediniz ki, torpağımız uğrunda savaşırıq, yurd uğrunda savaşırıq. Savaşda amalımız Vətəndir. Savaşda amalımız insan öldürmək deyil, qoy kim ölmək istəmirsə, bizim torpaqlarımızdan çıxıb getsin.

Cənab Ali Baş Komandan, yol aydın, məram aydın. Bunu görürəm.

Cəbrayılın işğaldan azad olunan günü (04.10.2020) çıxışınızı dörd gözlə izləyirdim. Təkcə mən yox, bütün ailə üzvlərim göz yaşları içərisində izləyirdik. Mənə elə gəlirdi ki, Siz yalnız bizim ailəyə, o cümlədən şəxsən mənə üz tutub danışırsınız. Nə qədər səmimi, nə qədər doğru, nə qədər ürəkdən, nə qədər öz xalqına sevgi ilə danışan komandanın çıxışını dinləyirdim: "Biz, haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğruldurуq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" Mənim Ali Baş Komandanım, həm də Siz dünyaya həqiqəti deməkdə də savaşlarınızda səmimiyyət örnəyi oldunuz.

...Və bir daha inandım. Sərkərdə qoçaq olanda, sərkərdə basılmaz olanda ordu da basılmaz olur.

Siz çıxışlarınızda Cəbrayılın bütöv Qarabağın abad olunacağı haqqında da vədlər verdiniz. Və zaman-zaman Sizin ünvanınıza böhtanlar yağdıranları da əsl həqiqətə gətirdiniz, etirafa gətirdiniz. Böyüklüyünüzü təsdiq edən həqiqətə.

***Əli Rza XƏLƏFLİ,***
***21.10.2020***